# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 3-29/3-2-548F/2025/1 nömrəli 08.09 2025-ci il tarixli əmri ilə təsdiq edilmişdir.**

ƏSLİ İLƏ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİL NAZİRLİYİ * VƏTƏNDAŞLARA XİDMƏT VƏ SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ

## MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

## TƏHSİL PROQRAMI

İxtisasın şifri və adı: 7008003 – Sosial iş

BAKI – 2025

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN UNİVERSİTETİ**

*Azərbaycan Universiteti Elmi şurasının*
*12.09.2025-ci il tarixli,*
*01 saylı protokolu ilə təsdiq edilmişdir.*

______________

*Rektor S.N. Əliyeva*

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ
# T Ə H S İ L  P R O Q R A M I

**İxtisasın şifri və adı: 7008003 – Sosial iş**

**İxtisaslaşma adı: 1. Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş**
**2. Gənclərlə iş**

**BAKI – 2025**

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ TƏHSİL PROQRAMININ ÇƏRÇİVƏ SƏNƏDİ

## 1. Ümumi müddəalar

**1.1.** Magistratura səviyyəsinin **7008003 – Sosial iş** ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

**1.2.** Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

**1.3.** Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

**1.4.** Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

**1.5.** Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

**2.1.** Təhsil proqramının sonunda məzun aşağıdakı ***ümumi səriştələrə*** yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;

- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;

  fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyrimütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək;

**2.2.** Ayrı-ayrı ixtisaslaşmalar üzrə təhsil proqramının sonunda məzun aşağıdakı ***peşə səriştələrinə*** yiyələnməlidir:

**2.2.2. “Gənclərlə iş” ixtisaslaşması üzrə:**

- Azərbaycanda gənclərin məşğulluğu sahəsində dövlət siyasətini dünya ölkələrinin qabaqcıl təcrübəsi ilə müqayisəli təhlil etmək və təkliflər hazırlamaq;
- gənclərlə psixososial iş prosesində innovativ texnologiyaların tətbiq imkanlarını təhlil etmək və onların konkret hallarda istifadəsi ilə bağlı qərarlar vermək;
- gənclərlə sosial iş sahəsində deviant və delikvent davranışın qarşısının alınması məqsədilə profilaktik və terapevtik texnologiyaları tətbiq etmək;
- gənclərin məşğulluğu və özünəməşğulluğu sahəsində müvafiq beynəlxalq və yerli proqramları tətbiq etmək, o cümlədən üçüncü sektorun sosial tərəfdaş kimi bu istiqamətdə iştirakını təmin etmək;
- gənclərlə sosial işdə liderliyi, kommunikasiyanın təşkilini, könüllülük fəaliyyətini praktik situasiyalara uyğun tətbiq etmək;

  - yerli və beynəlxalq səviyyədə gənclərin sosial-iqtisadi təşəbbüslərinə yönəlmiş proqramların sosial iş çərçivəsində tətbiq imkanlarını qiymətləndirmək.

**2.2.3. “Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş” ixtisaslaşması üzrə:**

- sosial işin müxtəlif növlərini və formalarını müqayisəli şəkildə təhlil etmək və onların praktik tətbiq imkanlarını qiymətləndirmək;
- sosial iş təcrübəsində mövcud etik davranış qaydalarını və nəzəri baxışları müqayisə edərək onların tətbiq perspektivlərini qiymətləndirmək;

- yerli və beynəlxalq təşkilatların təcrübələrini müqayisə edərək sosial-statistik təhlillər aparmaq, əldə olunmuş nəticələri fəaliyyətində tətbiq etmək;
- çətin həyat şəraitində olan vətəndaşların sosial ehtiyaclarına uyğun sosial dəstək tədbirlərini həyata keçirmək;
- risk qruplarının üzləşdiyi sosial problemləri təhlil etmək və onların həlli istiqamətində sosial işçilərin müdaxilə strategiyalarını müəyyənləşdirmək;
- Sosial müdafiə sistemi sahəsində Azərbaycan və beynəlxalq təcrübəni təhlil etmək.

## 3. Təhsil proqramının strukturu

**3.1.** Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Gənclərlə iş | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş | Magistr ali elmi-ixtisas | 2 il | 120 |

**3.2.** Təhsil proqramı ixtisasdan (ixtisaslaşmadan) asılı olaraq 90 (1,5 il) və ya 120 (2 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti | |
|---|---|---|---|
| 1 | **Tədqiqat metodları**<br>*Bu fənn kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına diqqət yetirir. Fənn çərçivəsində tədqiqat səriştələri, kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edilməsi, verilənlərin araşdırılması, təhlil edilərək təqdim edilməsi kimi keyfiyyətin aşılanmasını nəzərdə tutur.* | 0 | 6 |
| 2 | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | 6 | 6 |

| | | | |
|---|---|---|---|
| 3 | **Layihələrin idarə olunması**<br>*Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələləri ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgün qiymətləndirilməsi, "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. mövzular əhatə olunmalıdır.* | 6 | 0 |
| 4 | **Tədqiqat analitikası**<br>*Bu fənnin tədrisi məlumat təhlili prosesi, məlumat növləri, məlumatların toplanma mənbələri, məlumat təhlili üzrə strategiyanın qurulması, məlumatların təhlil üçün hazırlanması və təmizlənməsi, təhlil üçün məlumatların sistemləşdirilməsi, məlumatların vizuallaşdırılması, sahəyə uyğun olaraq təhlillərdə istifadə olunacaq proqram təminatları ilə tanışlıq ("Excel", "SPSS", "Stata", "R", "MAXQDA", "Matlab", "Python" və s. kimi), ixtisas sahəsində tədqiqatlarda istifadə olunan təhlil metodları ilə təhlillərin aparılması (statistik testlər və təhlillər, kəmiyyət və keyfiyyət təhlilləri, eksperimental təhlillər, anket və sorğu təhlilləri və s. kimi) və təhlillərin əsasında müvafiq rəylərin hazırlanmasını nəzərdə tutur.* | 0 | 6 |
| 5 | **Sosial işə giriş**<br>*Bu fənn sosial iş peşəsinin əsas anlayışlarını və məqsədlərini öyrədir. Tələbələr sosial işin yaranma tarixi, inkişaf mərhələləri və cəmiyyətdəki rolunu mənimsəyirlər. Fənn çərçivəsində sosial işçinin etik prinsipləri və peşə məsuliyyəti izah olunur. Həmçinin sosial problemlərin müəyyənləşdirilməsi və insanlara dəstək mexanizmləri haqqında ilkin biliklər verilir. Bu kurs gələcək sosial iş fəaliyyəti üçün baza rolunu oynayır.* | 6 | 6 |
| | **Sosial işin nəzəriyyəsi və təcrübəsi**<br>*Bu fənn sosial iş sahəsində istifadə olunan əsas nəzəri yanaşmaları və praktik metodları əhatə edir. Tələbələr fərd, ailə və qruplarla işləmək üsullarını öyrənirlər. Sosial problemlərin həlli üçün tətbiq olunan müdaxilə modelləri izah edilir. Praktik nümunələr və real hadisələr üzərində analiz aparılır. Fənn nəzəri biliklərin praktik fəaliyyətə tətbiqini gücləndirir.* | 6 | 6 |
| | **Sosial kontekstdə insan davranışı**<br>*Bu fənn insan davranışının sosial mühitlə əlaqəsini araşdırır. Şəxsiyyətin formalaşmasına təsir edən ailə, cəmiyyət, mədəniyyət və sosial institutlar öyrənilir. İnsanların müxtəlif yaş dövrlərində psixoloji və sosial inkişaf xüsusiyyətləri təhlil edilir. Sosial problemlərin insan davranışına təsiri izah olunur. Fənn sosial işçilərə insan davranışını daha düzgün qiymətləndirməyə kömək edir.* | 6 | 6 |

| | | | |
|---|---|---|---|
| | | | |
| | **Sosial işin sahə təcrübəsi**<br><br>*Bu fənn tələbələrin nəzəri biliklərini praktik mühitdə tətbiq etmələrinə şərait yaradır. Tələbələr müxtəlif sosial xidmət müəssisələrində təcrübə keçirlər. Sahə işi zamanı müraciətlərin qəbulu, problemlərin qiymətləndirilməsi və yardım planlarının hazırlanması öyrənilir. Praktik fəaliyyət peşə bacarıqlarının inkişafına kömək edir. Həmçinin tələbələr real sosial problemlərlə işləmək təcrübəsi qazanırlar* | 0 | 6 |
| | **Rəqəmsal dövrdə sosial innovasiyalar və idarəetmə**<br>*Bu fənn rəqəmsal texnologiyaların sosial xidmət sahəsində tətbiqini öyrədir. Sosial innovasiya anlayışı və yeni idarəetmə yanaşmaları izah olunur. Tələbələr elektron xidmətlər, məlumat idarəçiliyi və rəqəmsal kommunikasiya vasitələri ilə tanış olurlar. Müasir texnologiyaların sosial problemlərin həllində rolu təhlil edilir. Fənn innovativ düşüncə və idarəetmə bacarıqlarını inkişaf etdirir.* | 0 | 6 |
| | **Əhalinin müxtəlif sosial qrupları ilə sosial iş**<br><br>*Bu fənn uşaqlar, yaşlılar, əlilliyi olan şəxslər, miqrantlar və digər həssas qruplarla işləmə metodlarını öyrədir. Hər bir sosial qrupun ehtiyacları və problemləri ayrıca təhlil olunur. Tələbələr fərqli qruplara uyğun sosial müdaxilə üsullarını mənimsəyirlər. Empatiya və peşəkar ünsiyyət bacarıqları inkişaf etdirilir. Fənn sosial işçilərin müxtəlif əhali qrupları ilə effektiv işləməsinə kömək edir.* | 0 | 6 |
| | **Sosial xidmət siyasəti**<br>*Bu fənn sosial siyasətin əsas prinsiplərini və dövlətin sosial müdafiə mexanizmlərini öyrədir. Sosial xidmətlərin təşkili və idarə olunması yolları izah edilir. Tələbələr müxtəlif ölkələrin sosial siyasət modelləri ilə tanış olurlar. Əhalinin həssas qruplarının müdafiəsinə yönəlmiş proqramlar təhlil edilir. Fənn sosial rifah sisteminin fəaliyyətini anlamağa imkan yaradır.* | 0 | 6 |
| | **İcmaların inkişafı**<br>*Bu fənn icmaların sosial və iqtisadi inkişaf proseslərini öyrənir. İcma problemlərinin müəyyənləşdirilməsi və həlli yolları araşdırılır. Tələbələr yerli resurslardan istifadə və insanların ictimai fəallığının artırılması üsullarını öyrənirlər. Komanda işi və liderlik bacarıqları inkişaf etdirilir. Fənn davamlı və güclü icmaların formalaşdırılmasına yönəlir.* | 6 | 6 |

| | | | |
|---|---|---|---|
| | **Proqram qiymətləndirilməsi və monitorinqi** *Bu fənn sosial və gənclərlə bağlı proqramların effektivliyinin qiymətləndirilməsi üsullarını öyrədir. Tələbələr layihələrin planlaşdırılması, monitorinqi və nəticələrinin təhlili ilə tanış olurlar. Müxtəlif qiymətləndirmə metodları və göstəricilərinin tətbiqi izah edilir. Fənn proqramların güclü və zəif tərəflərini müəyyən etməyə kömək edir. Həmçinin hesabatların hazırlanması və məlumatların analiz bacarıqları inkişaf etdirilir.* | 6 | 0 |
| | **Gənclərlə işin psixoloji əsasları** *Bu fənn gənclərin psixoloji inkişaf xüsusiyyətlərini və davranışlarını öyrənir. Yeniyetməlik və gənclik dövründə yaranan sosial və emosional problemlər təhlil olunur. Tələbələr motivasiya, ünsiyyət və psixoloji dəstək üsullarını mənimsəyirlər. Gənclərlə düzgün münasibət qurma yolları izah edilir. Fənn gənclərin fərdi ehtiyaclarını anlamağa və onlarla effektiv işləməyə kömək edir.* | 6 | 0 |
| | **Azərbaycanda gənclər və təhsil üzrə dövlət siyasəti** *Bu fənn Azərbaycanda gənclər və təhsil sahəsində həyata keçirilən dövlət siyasətini öyrədir. Gənclərin inkişafına yönəlmiş proqramlar və qanunvericilik aktları təhlil olunur. Tələbələr dövlət qurumlarının fəaliyyət istiqamətləri ilə tanış olurlar. Təhsil və gənclər siyasətinin cəmiyyətin inkişafındakı rolu izah edilir. Fənn milli prioritetlər və strateji inkişaf məqsədləri haqqında bilik verir.* | 6 | 0 |
| | **Süni intellekt və gənclərlə işin innovativ üsulları** *Bu fənn süni intellekt texnologiyalarının gənclərlə iş sahəsində tətbiqini öyrədir. Müasir rəqəmsal alətlər və innovativ metodların istifadəsi izah olunur. Tələbələr onlayn platformalar, məlumat analizi və rəqəmsal kommunikasiya vasitələri ilə tanış olurlar. Süni intellektin təhsil və sosial layihələrdə rolu təhlil edilir. Fənn yaradıcı düşüncə və innovativ yanaşmaların inkişafına kömək edir.* | 6 | 0 |
| | **Gənclərlə iş metodikası** *Bu fənn gənclərlə iş zamanı istifadə olunan metod və texnikaları öyrədir. Tələbələr təlim, mentorluq, layihə fəaliyyəti və qeyri-formal təhsil üsulları ilə tanış olurlar. Gənclərin fəallığını artırmaq üçün müxtəlif yanaşmalar izah edilir. Praktik məşğələlər vasitəsilə ünsiyyət və təşkilatçılıq bacarıqları inkişaf etdirilir. Fənn gənclərlə səmərəli və peşəkar işləmək üçün vacib biliklər qazandırır.* | 6 | 0 |

| | | | |
|---|---|---|---|
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər**[1] | | |
| ... | **Sosial iş praktikasında ictimai maraqların müdafiə olunması**<br><br>*Bu fənn sosial iş sahəsində insanların hüquq və maraqlarının qorunması yollarını öyrədir. Tələbələr sosial ədalət, bərabərlik və insan hüquqları prinsipləri ilə tanış olurlar. İctimai müdafiə mexanizmləri və sosial kampaniyaların təşkili izah edilir. Sosial işçinin cəmiyyət qarşısındakı məsuliyyəti və etik rolu təhlil olunur. Fənn həssas qrupların müdafiəsində peşəkar yanaşmanı inkişaf etdirir.*<br><br>**Sosial psixologiya**<br><br>*Bu fənn insanların sosial mühitdə davranış və münasibətlərini araşdırır. Qrup münasibətləri, sosial təsir və ünsiyyət prosesləri öyrənilir. Tələbələr insanların davranışına təsir edən psixoloji və sosial amilləri təhlil edirlər. Münaqişələrin yaranması və həlli yolları izah olunur. Fənn sosial münasibətləri daha yaxşı anlamağa kömək edir.* | 0 | 6 |
| | **Ahıllarla sosial iş**<br>*Bu fənn yaşlı insanlarla sosial işin əsas prinsiplərini və metodlarını öyrədir. Ahılların sosial, psixoloji və sağlamlıq problemləri təhlil edilir. Tələbələr yaşlı şəxslərə sosial dəstək və xidmət göstərmə yollarını mənimsəyirlər. Yaşlıların cəmiyyətə inteqrasiyası və həyat keyfiyyətinin artırılması məsələləri araşdırılır. Fənn ahıllarla empatik və peşəkar işləmək bacarığı formalaşdırır.*<br><br>**Qruplarla psixososial iş**<br>*Bu fənn müxtəlif sosial qruplarla işləmə metodlarını öyrədir. Tələbələr qrup dinamikası və psixososial dəstək üsulları ilə tanış olurlar. Qrup daxilində ünsiyyət, əməkdaşlıq və problemlərin həlli yolları izah edilir. Praktik məşğələlər vasitəsilə qrup idarəetmə bacarıqları inkişaf etdirilir. Fənn insanların sosial adaptasiyasına və psixoloji dəstəyinə yönəlir.* | 0 | 6 |

[1] Burada “fənlər” dedikdə fənlərlə yanaşı, layihələr (eləcə də “Capstone” layihəsi), yaradıcılıq işi, laboratoriya işləri və digər aidiyyəti tədris fəaliyyətləri (olduğu təqdirdə) başa düşülür. Bu fənlər akademik heyətin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən təklif edilir. Sözügedən fənlər müəyyən edilən zaman əmək bazarının təklifləri də nəzərə alınır və bu məqsədlə ali təhsil müəssisələri və əmək bazarı nümayəndələrindən ibarət işçi qrupunun yaradılması tövsiyə olunur. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər təhsilalanlar üçün seçmə xarakter daşımalı, eləcə də təhsilalanların xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır. Bu bölmədə minimum 3 fənn olmalıdır.

| | | |
|---|---|---|
| **Sosial sığorta**<br>*Bu fənn sosial müdafiə sistemində sosial sığortanın rolunu və funksiyalarını öyrədir. Pensiya, işsizlik, əmək qabiliyyətinin itirilməsi və digər sosial təminat növləri izah olunur. Tələbələr sosial sığorta sisteminin hüquqi və iqtisadi əsasları ilə tanış olurlar. Sosial təminat mexanizmlərinin əhaliyə təsiri təhlil edilir. Fənn sosial rifah sisteminin fəaliyyətini anlamağa kömək edir.*<br><br>**Sosial siyasətin təhlili**<br>*Bu fənn sosial siyasətin formalaşdırılması və qiymətləndirilməsi prosesini öyrədir. Müxtəlif sosial problemlərə yönəlmiş dövlət siyasətləri təhlil olunur. Tələbələr sosial proqramların effektivliyini qiymətləndirmə üsullarını mənimsəyirlər. Sosial siyasətin cəmiyyətin rifahına təsiri araşdırılır. Fənn analitik düşüncə və siyasət təhlili bacarıqlarını inkişaf etdirir.* | 0 | 6 |
| **HİV/QİÇS və vərəm ilə yaşayan insanlar, narkotik istifadəçiləri ilə sosial iş**<br><br>*Bu fənn HİV/QİÇS, vərəm və narkotik asılılığı olan şəxslərlə sosial iş metodlarını öyrədir. Bu insanların sosial, psixoloji və tibbi problemləri təhlil edilir. Tələbələr stigma və ayrı-seçkiliyin aradan qaldırılması yolları ilə tanış olurlar. Reabilitasiya və sosial dəstək xidmətlərinin təşkili izah edilir. Fənn həssas qruplarla etik və peşəkar işləmək bacarığını inkişaf etdirir.*<br><br>**Deviant davranışlı şəxslərlə sosial iş**<br><br>*Bu fənn cəmiyyət normalarından kənar davranış göstərən şəxslərlə işləmə üsullarını öyrədir. Deviant davranışın yaranma səbəbləri və sosial təsirləri araşdırılır. Tələbələr risk qrupları ilə sosial müdaxilə və reabilitasiya metodlarını mənimsəyirlər. Cinayətkarlıq, zorakılıq və asılılıq kimi problemlər təhlil edilir. Fənn sosial adaptasiya və davranışın korreksiyası istiqamətində peşəkar yanaşma formalaşdırır.* | 0 | 6 |
| **Gənclərin sosial problemləri**<br><br>*Bu fənn gənclər arasında rast gəlinən əsas sosial problemləri öyrənir. Təhsil, işsizlik, asılılıqlar və sosial adaptasiya çətinlikləri təhlil olunur. Tələbələr bu problemlərin yaranma səbəblərini və nəticələrini araşdırırlar. Sosial risk faktorları və müdaxilə mexanizmləri izah edilir.* | 6 | 0 |

| | | | |
|---|---|---|---|
| | *Fənn gənclərlə effektiv sosial iş aparmaq üçün analitik yanaşma formalaşdırır.*<br><br>**Gənclərin psixologiyası və psixiatriyası**<br><br>*Bu fənn gənclik dövründə psixoloji inkişaf və psixi sağlamlıq məsələlərini öyrənir. Yeniyetmə və gənclərdə rast gəlinən emosional və davranış pozuntuları təhlil edilir. Tələbələr psixi sağlamlıq problemlərinin ilkin əlamətlərini tanımağı öyrənirlər. Psixoloji yardım və dəstək üsulları izah edilir. Fənn gənclərlə işləyən mütəxəssislərə praktik biliklər qazandırır.* | | |
| | **Sosial xidmət siyasəti**<br><br>*Bu fənn sosial xidmətlərin dövlət tərəfindən təşkili və idarə olunmasını öyrədir. Sosial müdafiə sistemləri və xidmət modelləri təhlil edilir. Tələbələr həssas qruplara yönəlmiş sosial proqramlarla tanış olurlar. Sosial xidmətlərin keyfiyyətinin qiymətləndirilməsi üsulları izah edilir. Fənn sosial rifah sisteminin strukturunu anlamağa kömək edir.*<br><br>**Sosial siyasətin təhlili**<br><br>*Bu fənn sosial siyasətin formalaşdırılması və qiymətləndirilməsini araşdırır. Dövlətin sosial proqramları və onların effektivliyi təhlil olunur. Tələbələr sosial göstəricilərin və məlumatların analizini öyrənirlər. Sosial problemlərin həllində siyasətin rolu izah edilir. Fənn analitik və tədqiqat bacarıqlarını inkişaf etdirir.* | 6 | 0 |
| | **Könüllülük fəaliyyətinin təşkili**<br><br>*Bu fənn könüllülük hərəkatının planlaşdırılması və idarə olunmasını öyrədir. Tələbələr könüllü layihələrin hazırlanması və həyata keçirilməsi ilə tanış olurlar. Könüllülərin motivasiyası və idarə olunması üsulları izah edilir. Sosial layihələrdə könüllülərin rolu və əhəmiyyəti təhlil olunur. Fənn ictimai fəallığın artırılmasına yönəlir.*<br><br>**Gənclərin məşğulluğu və əmək bazarı**<br><br>*Bu fənn gənclərin əmək bazarına çıxışı və məşğulluq imkanlarını öyrədir. İşsizlik problemləri və onların həlli yolları təhlil edilir. Tələbələr əmək bazarının strukturu və tələbləri ilə tanış olurlar. Karyera planlaşdırılması və peşə yönümlü bacarıqlar izah edilir. Fənn gənclərin iqtisadi və sosial inteqrasiyasını gücləndirir.* | 6 | 0 |

| | | | |
|---|---|---|---|
| **Təcrübə** | | | |
| ... | **Elmi-pedaqoji təcrübə** | 6 | 6 |
| ... | **Elmi tədqiqat təcrübəsi** | 0 | 6 |
| **Dissertasiya işi** | | | |
| ... | **Magistrlik dissertasiyası** | 0 | 18 |
| **CƏMİ** | | **90** | **120** |

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

**4.1.** Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

**4.2.** İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

**4.3.** İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

**4.4.** Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

**5.1.** Ali təhsil müəssisəsi tədris, təlim və qiymətləndirmə fəaliyyətlərinin yüksək səviyyədə təşkil olunması üçün informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş müasir auditoriyalara malik olmalı, tələbələrə lokal şəbəkə və internetə, elektron kitabxanalara və onlayn arxiv resurslarına fasiləsiz çıxış imkanı yaratmalıdır. Eyni zamanda, tələbələrin ixtisaslaşma üzrə dərin biliklərə yiyələnməsi və elmi-tədqiqat işlərinin aparılmasını dəstəkləmək məqsədilə müasir elmi jurnallara, elmi məlumat bazalarına və virtual laboratoriya mühitlərinə, akademik etik mühitə inteqrasiya üçün antiplagiat sistemlərinə çıxışı təmin edilməlidir.

Həmçinin, ayrı-ayrı ixtisaslaşmalar üzrə aşağıdakı infrastruktur və resurs tələbləri də nəzərə alınmalıdır:

**“Gənclərlə iş” ixtisaslaşması üzrə:**

- Gənclərlə ünsiyyət bacarıqlarının tədrisi üçün video-analiz otaqları;
- Psixoloji müdaxilə texnologiyalarını dəstəkləyən test və təhlil platformaları;

**“Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş” ixtisaslaşması üzrə:**

- Fərqli sosial qruplarla iş üzrə rollu oyun simulyatorları;
- Məişət zorakılığı, əmək münasibətləri, təhsil və səhiyyə mövzularında sosial iş modulları;

**5.2.** Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

**5.3.** Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

**6.1.** Sosial iş ixtisası üzrə məzunlar əmək və sosial müdafiə, gənclərlə iş, təhsil, səhiyyə, hüquq, reabilitasiya, psixi sağlamlıq, sosial xidmətlərin təşkili və idarə olunması, icma əsaslı və beynəlxalq sosial proqramlar kimi müxtəlif sahələrdə fəaliyyət göstərən dövlət, qeyri-hökumət və özəl qurumlarda peşəkar sosial işçi, mütəxəssis, baş mütəxəssis və struktur bölmə rəhbərləri kimi fəaliyyət göstərə bilərlər. Həmçinin müvafiq ixtisası bitirən məzunlar müxtəlif sosial layihələrdə, startap və innovativ təşəbbüslərdə, orta ixtisas və peşə təhsili müəssisələrində, habelə magistrlik dissertasiyası müdafiə edənlər isə ali təhsil müəssisələrində və elmi-tədqiqat qurumlarında elmi-pedaqoji və elmi-tədqiqat fəaliyyətlərində iştirak edə bilərlər. Ayrı-ayrı ixtisaslaşmalar üzrə isə məzunlar aşağıdakı sahələrdə qeyd olunan müxtəlif peşələrdə işləyə biləcəklər:

**“Gənclərlə iş” ixtisaslaşması üzrə:**

- gənclər və idman sahəsində dövlət və qeyri-dövlət strukturlarında gənclərlə iş üzrə mütəxəssis, proqram koordinatoru;
- gənclər təşkilatları (QHT), klublar və ictimai birliklərdə gənclər proqramları üzrə layihə rəhbəri, sosial işçi;
- təhsil müəssisələrinin gənclərlə iş bölmələrində gənclərlə iş üzrə kurator, psixososial dəstək mütəxəssisi;
- sosial-psixoloji dəstək və inkişaf mərkəzlərində psixososial məsləhətçi, gənclərlə fərdi iş üzrə terapevtik mütəxəssis.

**“Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş” ixtisaslaşması üzrə:**

- təhsil, səhiyyə, hüquq və penitensiar sistemlərdə sosial işçi, reabilitasiya üzrə məsləhətçi, müdaxilə planlaşdırıcısı;
- gender və ailə məsələləri üzrə təşkilatlarda gender məsələləri üzrə sosial məsləhətçi, layihə koordinatoru;
- məişət zorakılığı ilə mübarizə və müdafiə strukturlarında qurbanlarla iş üzrə sosial işçi, psixososial dəstək mütəxəssisi;
- sosial risk qrupları ilə işləyən mərkəzlərində sosial inteqrasiya üzrə mütəxəssis, fərdi planlaşdırma üzrə məsləhətçi;
- inteqrasiya və sosial adaptasiya proqramlarında layihə rəhbəri, sosial yönləndirmə üzrə əlaqələndirici.

**6.2.** Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

**6.3.** Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər.

**6.4.** Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

**Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri**

**“Gənclərlə iş” ixtisaslaşması üzrə:**

| **Proqramın təlim nəticələri (PTN)** |
|---|
| **PTN 1.** Elmi etika prinsiplərinə və akademik yazı standartlarına riayət etməklə sahə üzrə məlumatların təhlilini həyata keçirməyi, həmçinin müvafiq layihələrin planlaşdırılması, idarə olunması və nəticələrinin qiymətləndirilməsi prosesini səmərəli şəkildə təşkil etməyi bacaracaq. |
| **PTN 2.** Gənclərlə sosial işin qanunvericilik bazasının təhlilində istifadə olunan üsul və metodologiyanı araşdırmağı bacaracaq. |
| **PTN 3.** Gənclərlə sosial işə aid texnologiyaların istiqamətlərini, formalarını və üsullarını təhlil edəcək. |
| **PTN 4.** Sosial işdə etik davranışla bağlı sosial dəyər və normaları tətbiq etməyi bacaracaq. |
| **PTN 5.** Gənclərin məşğulluğu sahəsində sosial işin təkmilləşdirilməsi məqsədilə müxtəlif yeni çağırışları təhlil edəcək. |
| **PTN 6.** Gənclərlə psixoloji, sosial və iqtisadi işin əsas üsulları, formalarını və istiqamətlərini öyrənəcək. |
| **PTN 7.** Gənclərin sosial iştirakçılığını, özünütəsdiq və liderlik potensialını gücləndirmək məqsədilə fərdi və qrup yönümlü metodları tətbiq etməyi bacaracaq. |

**“Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş” ixtisaslaşması üzrə:**

| Proqramın təlim nəticələri (PTN) |
| --- |
| **PTN 1.** Elmi etika prinsiplərinə əsaslanaraq sahə üzrə probelmləri müəyyənləşdirməyi, həlli istiaqamətində tədqiqat suallarını formalaşdırmağı, uyğun tədqiqat metodlarını seçib tətbiq etməyi, verilənləri analitik üsullarla təhlil etməyi və əldə olunan nəticələri akademik yazı standartlarına uyğun şəkildə təqdim etməyi bacaracaq. |
| **PTN 2.** Müasir rəqəmsal cəmiyyətdə sosial proseslərin tənzimlənməsi və optimal idarə edilməsi yollarını təhlil edəcək. |
